**Azərbaycan Xalq Parlamentinin**
**Xarici Əlaqələr Komitəsinin**
**Əsasnaməsi**

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə, Azərbaycan Xalq Parlamentinin (bundan sonra: AzXP) Nizamnaməsinin 6.4-cü maddəsinə əsasən yaradılan Xarici Əlaqələr Komitəsinin (bundan sonra: Komitə) təşkili və fəaliyyətinin əsaslarını müəyyən edir.

1.2. Komitə AzXP-nin xarici dövlətlər və həmin dövlətlərdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması və bu Əsasnamə ilə müəyyən edilmiş digər vəzifələrin yerinə yetirilməsi məqsədilə fəaliyyət göstərir.

1.3. Komitənin hüquqları, təşkili qaydası, səlahiyyət müddəti, fəaliyyət prinsipləri, tərkibi, iclaslarının keçirilməsi qaydası, Komitə sədrinin və İdarə Heyətinin səlahiyyətləri AzXP Reqlamentinin 24.11-ci maddəsinə uyğun tənzimlənir.

1.4. Komitənin üzvləri mühacirətdə yaşayan AzXP millət vəkillərindən ibarətdir.

## 2. Komitənin funksiyaları

2.1. Komitə aşağıdakı funksiyaları həyata keçirir:

2.1.1. AzXP tərəfindən qəbul olunmuş qərar, qətnamə, bəyanat və müraciətləri üzvlərin yaşadıqları ölkələrin rəsmi dövlət qurumlarına (Parlament, Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi və s.), eləcə də yerli və beynəlxalq təşkilatlara təqdim etmək;

2.1.2. Yaşadıqları ölkələrdəki rəsmi dövlət orqanları və beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq və bu əlaqələri inkişaf etdirmək;

2.1.3. Beynəlxalq təşkilatların təşkil etdiyi tədbirlərdə iştirak etmək və AzXP-ni təmsil etmək;

2.1.4. Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan haqqında qəbul olunmuş sənədləri (qətnamə, bəyanat və s.) təhlil etmək və müzakirəyə çıxarılması üçün Parlamentə təqdim etmək;

2.1.5. AzXP tərəfindən ictimai müzakirəyə çıxarılan daxili və xarici siyasətlə bağlı qanun layihələrinə dair daxil olan təklifləri ümumiləşdirib Parlamentə təqdim etmək;

2.1.6. Hər il yaz və payız sessiyalarının əvvəlində Komitənin fəaliyyəti barədə hesabat təqdim etmək.

## 3. Komitənin vəzifələri

3.1. Komitə xarici siyasət sahəsində aşağıdakı vəzifələri həyata keçirir:

3.1.1. Xarici əlaqələrin formalaşdırılması və həyata keçirilməsinə dair qanun layihələri hazırlamaq və ya təqdim olunmuş layihələrə rəy vermək;

3.1.2. AzXP-nin beynəlxalq əlaqələrinin inkişafı ilə bağlı təkliflər hazırlamaq;

3.1.3. Xaricdə yaşayan azərbaycanlılar və onların təşkilatları ilə əlaqələr qurmaq və mövcud əlaqələri möhkəmləndirmək;

3.1.4. Xaricdə fəaliyyət göstərən Azərbaycan rəsmi nümayəndələrinin (səfirlər, konsullar, diaspor təşkilat rəhbərləri və s.) ümumi fəaliyyətini izləmək, ümumi fəaliyyət və qanun pozuntuları barədə Parlamentə hesabat təqdim etmək.

3.1.5. Yaşadığı ölkədə yaşayan azsaylı xalqlar və onların beynəlxalq təşkilatları ilə əlaqə qurmaq

3.1.6. AzXP-nin sədri ilə razılaşdırılmaqla Komitə üzvlərinin ölkə daxilində və o cümlədən xaricdə təşkil olunmuş debatlarda, teledebatlarda və o cümlədən, konfrans və simposiumlarda iştirak edib AzXP-ni təmsil etmək.

**4. Komitənin işinin təşkili**

4.1. Komitə öz illik iş planını hazırlayıb AzXP sədrinə təqdim edir.

4.2. Komitə sədri və İdarə Heyəti, AzXP-nin Rəyasət Heyətinin aparatının dəstəyi ilə Komitənin fəaliyyətini təşkil edir və üzvləri zəruri sənədlərlə təmin edir. Komitə sədri iş planının icrasına nəzarət edir.

**5. Komitə üzvlərinin hüquq və vəzifələri**

5.1. AzXP Nizamnaməsi və Reqlamentində nəzərdə tutulan hüquqlarla yanaşı, Komitə üzvləri onun bütün iclaslarında həlledici səs hüququna malikdirlər.

5.2. Üzvlər Komitənin müzakirə etdiyi məsələlər üzrə fikir bildirə, təklif və rəy verə bilərlər. Qəbul edilmiş qərarlarla razı olmadıqda, üzv xüsusi rəy ilə çıxış edə bilər.

5.3. Üzvlər yaşadıqları ölkələrin rəsmi qurumları və beynəlxalq təşkilatlarla müstəqil şəkildə əlaqə yarada bilərlər.

5.4. Üzvlər yaşadıqları ölkələrdə təşkil olunan dövlət və beynəlxalq tədbirlərdə iştirak edə bilərlər.

5.5. Üzvlər Parlamentin qəbul etdiyi sənədləri yaşadıqları ölkələrin aidiyyəti orqanlarına və beynəlxalq təşkilatlara təqdim etməlidirlər.

5.6. AzXP Xarici Əlaqələr Komitəsinin üzvü olan Millət Vəkili özünə 5 nəfərdən ibarət (millət vəkili olmayan) köməkçi seçə bilər və tədbirlərdə iştirak etmək səlahiyyətini verilir. Köməkçiləri Millət Vəkilinin təqdimatı əsasında AzXP-sədri təsdiq edir.

**6. Komitə iclaslarının təşkili**

6.1. Komitənin iclasları əsasən açıq keçirilir. Zəruri hallarda Komitənin qərarı ilə qapalı iclaslar da təşkil edilə bilər.

6.2. Açıq iclaslara dəvət olunmuş qonaqlar və media nümayəndələri dəvət oluna bilər.